# *Nazim HÜSEYNLİ-70*



Hörmətli Nazim müəllim!

Sizi - istedadlı yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin yetmişinci illərində başlamısınız. İlk qələm təcrübələriniz mətbuatda işıq üzü görmüşdür. "Yazıçı" və " Gənclik" nəşriyyatlarının çap etdiyi "Bahar çiçəkləri", "Yaşıl budaqlar", "Yeni səslər" almanaxlarına yaradıcılığınızdan nümunələr daxil edilmişdir. 1991-ci ildə "Yazıçı" nəşriyyatında hekayələrinizdən ibarət "Şabalıdlı dərə" kitabınız nəşr edilmişdir. Sonra "Oğuz lətifələri", "Uzun hörüklü qız", "Oğuzdur elim mənim", "Yurdum, torpağım, əzəl ünvanım - Oğuz", "Qədim Oğuz yurdu - Xaçmaz kəndi", "Bütövlük həsrəti", "Ver verim" adlı hekayələrdən, publisistik yazılardan və şeirlərdən ibarət kitablarınız oxucuların ixtiyarına verilmişdir. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmisiniz. Əmək fəaliyyətinə Oğuz rayon qəzetində ədəbi işçi kimi başlamısınız. Sonra həmin redaksiyada şöbə müdiri, rayon komsomol komitəsinin katibi, rayon tarix-diyarşünaslıq muzeyinin direktoru, rayon partiya komitəsinin təlimatçısı, siyasi maarif kabinetinin müdiri vəzifələrində işləmisiniz. 1990-cı ildə yenidən mətbuatda çalışmağa başlamısınız. Hazırda "Oğuz yurdu" qəzetinin redaktorusunuz.

2009-cu ildə Uşaq ili və BMT-nin Uşaq Hüquqları Konvensiyasının yubileyi münasibətilə keçirilən yazı müsabiqəsində "525-ci qəzet"də dərc edilən "Həyatın amansız burulğanında çapalayan uşaqlar" yazısına görə I yerə layiq görülmüsünüz. Azərbaycan Jurnalistlər Birliyinin diplomu ilə təltif olunmusunuz. "Qızıl qələm" media mükafatı laureatısınız. 2022-ci ildə Yeni Azərbaycan Partiyasının 30-cu ildönümü ilə əlaqədar elan olunmuş fərdi yazı müsabiqəsində "Zəfərlərimizin müəllifi: Xalq-dövlət-ordu birliyi - "Dəmir yumruq" yazısı ilə mükafatçılar sırasına çıxmısınız.

2022-ci ildə Türkiyənin Adana şəhərində Çukurova Ədəbiyyatçılar Dərnəyinin düzənlədiyi VII Uluslararası Türk Dünyası Şeir və Musiqi Festivalı adına təsis edilmiş ATATÜRK Medalı ilə təltif edilmisiniz. Prezident təqaüdçüsüsünüz.

Hörmətli Nazim müəllim! Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 18 mart.- S. 29.